# Mineral Decor

## Texniki Məlumat Səhifəsi

### Məhsul təqdimatı

Penguin Mineral Decor su əsaslı, 2mm fraksiyalı, suvaq strukturlu, tətbiq olunduğu xarici səthə “Koroed” effekt verən dekorativ boya meterialıdır.

### İstifadə olunacaq səthlər

Penguin Mineral Decor fasadlara və yaşayış, kommersiya, sənaye, anbar və digər bina və tikililərin daxili səthlərinə tətbiq edilir. İnsanların çox olduğu yerlərdə (ümumi istifadə sahələri, zallar, pilləkənlar, vestibüllər) tətbiq edilməsi tövsiyyə edilir. Səthi hava şəraitinin təsirlərindən, kif və yosunlarla zədələnməsindən qoruyur. Uşaq baxımı müəssəsələrində və müalicə-profilaktika müəssisələrinin adminstrativ qrupları üçün məkanlarda istifadə oluna bilər.

### Boya sərfiyatı

Səth düzgünlüğü və tətbiq üsulu ilə əlaqəli olaraq 2-2.5 kq/$m^2$. Sərfiyyata boyanacaq səthin nahamarlığı və məsaməliliyi, eləcə də rənglənmə üsulu və şərtləri təsir edir.

### Səthin hazırlanması və boya istifadə qaydası

Tətbiqdən öncə səth köhnə boya qalıqlarından, tozdan, kirdən və yağ qalıqlarından təmizlənməlidir. Səth tempraturu 5-30$^oC$ arasında olmalıdır. Əl ilə tətbiq üçün hazırlanmış səthə metal spatula və ya paslanmayan polad mala ilə məhsul tətbiq edilib aşağıdan yuxarıya doğru hərəkətlərlə 1 qat vurulur. Optimal təbəqə doldurucu fraksiya ölçüsündən artıq olmamalıdır.

Sürtünmə: materialın birinci təbəqəsini tətbiq etdikdən dərhal sonra faktura (sürtünmə) ilə səthi formalaşdırmağa başlaya bilərsiniz. Forma üçün plastik sürtgəcdən istifadə etmək olar.

Seçilmiş dekorativ effektdən asılı olaraq, sürtünmə üfüqi, şaquli, diaqonal və ya dairəvi hərəkətlərlə yerinə yetirilir. İş yerinə yetirərkən, iş alətləri mütəmadi olaraq yapışan qırıntılardan və məhsul qalıqlarından təmizlənməlidir. Son görünüş tam verilmədən fasilə verməmək tövsiyə olunur. "Üst-üstə düşən" yerlərdə "yaş üzərində yaş" üsulu ilə işləyin. İş başa çatdıqdan sonra alətləri su ilə yuyun.

### Quruma zamanı

Quruma zamanı əsasən hava şərtlərinə, çəkilən qat qalınlığına və çəkilən qat sayına bağlı olaraq 24 saata qədər. Havanın tempraturu 15$^oC$-dən aşağı və nisbi rütubət 65%-dən yuxarı olduqda, quruma müddəti uzana bilər.

### Saxlama şərtləri

Boya quru, sərin, yaxşı havalandırılmış, birbaşa günəş şüaları düşməyən depolarda, +5˚C ile +35˚C arasında qapağı açılmamış halda saxlanmalıdır. İstifadə etməzdən öncə yaxşı qarışdırılmalıdır. Yararlılıq müddəti açılmamış qablaşdırmasında 2 ildir.

### Qablaşdırılma şəkli

25kq-lıq plastik qablarda istehsal olunur.

**“CMT GROUP” MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az

# Mineral Decor

## Texniki Məlumat Səhifəsi

### Tətbiq edən operator

Bu məhsul professional istifadə üçün nəzərdə tutulub. Tətbiq edən şəxs və ya operator təcrübəli və məhsul barədə məlumatlı olmalıdır. Sözü gedən şəxs boyanı tələbnaməyə uyğun olaraq qarışdırmalı və tətbiq etməlidir. Tətbiqdə iştirak edən işçilər təhlükəsizlik avadanlıqları ilə təmin olunmalıdır.

### Məhsulun rəngi

Su əsaslı pastalar ilə istənilən rəng rənglənə bilər. Məhsulun rəngində partiyadan partiyaya kiçik fərqlilikləri mövcud ola bilər.

### Diqqət

Yuxarıdakı məlumatlar laboratoriya sınaqları və sahə tətbiqlərində əldə olunan nəticələr əsasında hazırlanmışdır. Şirkətin idarəsi xaricində olan tətbiqetmələrdə şirkət sadəcə boyanın keyfiyyətinə cavabdehdir. Tətbiqetmə və tətbiqetmə xətalarından yarana biləcək problemlərə görə cavabdehlik daşımır.

### Sağlamlıq və təhlükəsizlik qaydaları

Qabın üzərində göstərilən qaydalara riayət edin. Yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda saxlayın. Yaxşı havalandırılan ərazilərdə istifadə edin. İstifadə zamanı dəriylə təmas olmuşdursa, uyğun həlledici ilə sonra su və sabunla yuyulmalıdır. Gözə düşdüyündə bol su ilə yuyulub gərək olduğunda tibbi müdaxilə olunmalıdır.

| | |
|---|---|
| S 2 | : Uşaqların əli çatdığı yerlərdən uzaq tutun. |
| S 3 / 7 | : Qabı sərin yerdə,ağzı bağlı halda saxlayın. |
| S 24 / 25 | : Göz və dəri ilə təmasdan qoruyun. |
| S 29 | : Kanalizasiyaya atmayın. |

***Qeyd:** "CMT GROUP" MMC şirkəti xəbərdarlıq etmədən texniki məlumat səhifəsindəki məlumatları dəyişdirmə hüququnu özündə saxlayır.*

**"CMT GROUP" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az